## 2025-Cİ İL ÜZRƏ FİLMLƏRƏ DƏSTƏK MÜSABİQƏSİNİN KEÇİRİLMƏSİNƏ DAİR

## REQLAMENT

Azərbaycan Respublikasının Kino Agentliyi (bundan sonra – Agentlik) Post-prodakşn mərhələsində olan film layihələrinin tamamlama işlərinin dəstəklənməsi məqsədilə filmlərə dəstək müsabiqəsini (bundan sonra - Müsabiqə) elan edir.

Müsabiqənin keçirilməsində əsas məqsəd film istehsalının stimullaşdırılması və səmərəliliyinin yüksəldilməsi, müstəqil prodüser mərkəzləri və müvafiq sahədə fəaliyyət göstərən digər şəxslər arasında rəqabət qabiliyyətinin artırılması və birgə film istehsalının dəstəklənməsidir.

### MÜSABİQƏYƏ TƏQDİM OLUNAN LAYİHƏLƏRƏ DAİR TƏLƏBLƏR

Müsabiqə kinematoqrafın istənilən istiqamət, kateqoriya və janrlarını əhatə edən, kütləvi nümayiş üçün nəzərdə tutulan, post-prodakşn mərhələsində olan film layihələri arasında keçirilir.

### MÜSABİQƏNİN MƏRHƏLƏLƏRİ

Müsabiqə aşağıdakı 3 (üç) mərhələdən ibarətdir:

- 1-ci mərhələ - layihələrin qəbulu;
- 2-ci mərhələ - Bədii Şura tərəfindən layihələrin qiymətləndirilməsi;
- 3-cü mərhələ - sənədləşdirmə işləri (müqavilələrin bağlanması və s.)

- Müsabiqənin 1-ci mərhələsində müsabiqənin keçirilməsi ilə bağlı https://arka.culture.az internet səhifəsində elan verilir və 1,5 ay ərzində elektron qaydada layihələrin qəbulu həyata keçirilir. Agentlik təqdim edilən sənədlərin sayını və tamlığını yoxlayır. Təqdim edilən məlumatların tamlığına və düzgünlüyünə görə hər bir İştirakçı şəxsən məsuliyyət daşıyır.
- Agentlik layihələrin və İştirakçının rəsmi sənədlərinin qanunvericiliyə və qeyd olunan tələblərə uyğunluğunu yoxlayır. Sənədlər üzrə çatışmazlıq, uyğunsuzluq və digər qüsurlar barədə İştirakçının ərizədə təqdim etdiyi elektron poçt ünvanına yazılı sorğular və ya bildirişlər göndərilə bilər. Bu zaman layihəyə baxılma müddətinin axımı dayandırılır. İştirakçı bu cür sorğu və bildirişləri 3 (üç) iş günü müddətində cavablandırılmadıqda və ya qeyd edilən müddət ərzində tələb olunan çatışmayan, qüsurlu sənədləri və ya məlumatları düzəldərək, yenidən təqdim etmədikdə Agentlik həmin İştirakçının kənarlaşdırılması haqqında qərar qəbul edir.
- Hər bir İştirakçı hər bir film layihəsi üçün qeyd olunan elektron müraciət formasını (ərizə) və ərizəyə əlavə edilən aşağıdakı sənədləri təqdim etməlidir:
  - filmin beynəlxalq yazılış formatına uyğun (şrift: “Courier” (“Courier new”), şriftin ölçüsü: 12) ssenarisi (Azərbaycan Film Fonduna təhvil verilməsi məqsədilə);
  - rejissor və prodüserin şəxsiyyətini təsdiq edən sənədlərin (şəxsiyyət vəsiqələrinin və

ya daimi yaşayış icazələrinin) surəti;
- post-prodakşn işlərinə tələb olunan təxmini büdcə;
- post-prodakşn dövrünün iş planı;
- filmin titrlarında istifadə ediləcək logoların, adların və s. müəyyən edilməsi, o cümlədən, filmdəki reklam blokları barədə məlumatların əldə edilməsi məqsədilə filmin istehsal xərclərinin mənbəyi (sponsorluq müqavilələri və s.);
- 14 iyul 2023-cü il tarixli 988-VIQ nömrəli "Dövlət satınalmaları haqqında" Qanunun tələblərinə uyğun olaraq, İştirakçıdan tələb olunan sənədlər toplusu; (Maddə 23)
- təqdim olunmuş layihənin ssenarisinin müəllifliyini təsdiq edən, Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyindən alınmış müvafiq şəhadətnamə;
- filmin müəllifləri tərəfindən müəllif hüquqlarının iştirakçıya verilməsi ilə bağlı təsdiqedici sənədi (arayış, müqavilə və s.).

- Ərizəyə əlavə edilən bütün sənədlər PDF formatında olmalıdır.
- Müsabiqənin 2-ci mərhələsində Agentlik sənədlərini tam olaraq təhvil verilmiş İştirakçıların layihələrini Bədii Şuraya qiymətləndirilməsi və rəyin təqdim olunması məqsədilə təqdim edir.
- Müsabiqənin 3-cü mərhələsində qalib layihələri təqdim etmiş İştirakçılarla qanunvericiliyə uyğun müvafiq müqavilə bağlanılması istiqamətində işlər aparılır və "Dövlət satınalmaları haqqında" Qanuna uyğun olaraq müqavilələr bağlanılır.
- Agentliyin və müvafiq İştirakçı arasında qalib layihə üzrə, bu reqlamentə uyğun olaraq bağlanılmış müqavilədə bütün şərtər öz əksini tapır və qarşılıqlı imzalarla təsdiqlənir.

## MÜSABİQƏNİN ƏSAS ŞƏRTLƏRİ

- Müsabiqə kinematoqrafın istənilən istiqamət, kateqoriya və janrlarını əhatə edən, kütləvi nümayiş üçün nəzərdə tutulan, post-prodakşn mərhələsində olan film layihələri arasında keçirilir.
- Hər bir İştirakçı bir neçə layihə ilə müsabiqəyə qatıla bilər. Filmlərin kateqoriya və janrları üzrə hər hansı bir məhdudiyyət yoxdur.
- Müsabiqədə bir neçə hüquqi şəxs birgə iştirak edə bilər. Bu halda həmin hüquqi şəxslərdən yalnız biri İştirakçı qismində iştirak ərizəsi ilə müraciət edir. Digər hüquqi şəxslər həmin İştirakçı ilə münasibətləri qanunvericiliyə uyğun olaraq bağlanılmış müqavilələr (birgə istehsal, sponsor və s.) vasitəsilə tənzimlənir.
- Beynəlxalq kino şirkətləri yerli İştirakçı vasitəsilə müsabiqəyə qoşula bilər.
- Layihənin plagiat olduğu və ya hər hansı şəkildə üçüncü şəxslərin hüquqlarını pozduğu müəyyən edilərsə layihə kənarlaşdırılır. Müqavilə bağlandığı halda isə İştirakçı ilə bağlanılmış müqaviləyə dərhal xitam verilir və zərərin əvəzinin ödənilməsi barədə müvafiq tədbirlər görülür.
- İştirakçı müsabiqəyə müraciət edərkən filmin çəkilmiş kadrların ardıcıl videogörüntüsünü və çəkiliş məkanında yazılmış səs materiallarını (əgər varsa), birgə və ayrı-ayrılıqda təqdim etməlidir. Bədii Şura filmin çəkiliş materiallarını (xam materialları) baxış üçün tələb edə bilər.
- Müsabiqəyə təqdim olunan film layihələri Azərbaycan dilində olmalıdır. Filmin çəkilmiş kadrların ardıcıl videogörüntüsünə əlavə edilmiş səslər Azərbaycan dilində və ya Azərbaycan dilində subtitrlərlə və ikisəsli dublyajla təmin edilmək şərtilə xarici dildə ola bilər. Qalib layihələr üzrə filmin yekun təhvil variantında da bu tələblər gözlənilir.

- Müsabiqənin keçirilmə yeri, tarixi və vaxtı barədə məlumatlar Agentliyin rəsmi internet informasiya resursunda və mediada yerləşdirilir. Müsabiqənin keçirilmə tarixləri rəsmi internet informasiya resursu və mediada əvvəlcədən elan olunmaq şərtilə Müsabiqənin gedişinə uyğun dəyişdirilə bilər.
- Qalib layihə üzrə filmin post-prodakşn işləri layihəni təqdim etmiş İştirakçı tərəfindən həyata keçirilməlidir, bu hüquq üçüncü şəxslərə ötürülə bilməz.

## LAYİHƏLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ

- Müsabiqənin 2-ci mərhələsində Agentlik sənədlərini tam olaraq təhvil verilmiş İştirakçıların layihələrini, həmin layihələrin bədii və texniki keyfiyyətlərinə, məzmunlarının mili-mənəvi dəyərlərə, cəmiyyət və dövlətin maraqlarına uyğunluğuna dair rəy verməsi üçün Bədii Şuraya təqdim edir.
- Bədii Şura layihələr onlara təqdim olunduqdan ən geci 15 gün ərzində layihələrə rəy verməlidir. Zərurət yarandığı təqdirdə, Bədii Şura iclaslara İştirakçıların dəvət olunmasını tələb edə bilər. Bədii Şura İştirakçılardan əsaslandırma və zəruri olan digər açıqlamaları tələb edə bilər.
- Bədii Şura filmin post-prodakşn işlərinin həyata keçirilməsinin tövsiyə edilməsi ilə bağlı yekun rəyini bildirir və həmin rəyə müvafiq olaraq, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi (bundan sonra – Nazilrik) ilə razılaşdırmaqla Agentlik yekun qərar qəbul edir.

## FİLM LAYİHƏLƏRİNİN MALİYYƏLƏŞDİRİLMƏSİ

- Qalib layihələrin post-prodakşn işləri, onları təqdim etmiş İştirakçılar tərəfindən Agentliyin maliyyə dəstəyi ilə həyata keçirilir.
- Post-prodakşn işləri üçün maliyyə dəstəyinin maksimal həddi və Agentliyin filmin gələcəkdəki mənfəətində payı aşağıdakı kimi müəyyən olunur:

| **Layihənin forması və janrı** | **ARKA tərəfindən maksimal dəstək məbləği** | **ARKA-nın gəlirlərdə (mənfəət) payı** |
|---|---|---|
| Tammetrajlı bədii filmlər üzrə | 30000 (otuz min) AZN | 20 (iyirmi) faiz |
| Tammetrajlı sənədli filmlər üzrə | 20000 (iyirmi min) AZN | 30 (otuz) faiz |
| Qısametrajlı bədii və sənədli filmlər üzrə | 15000 (on beş min) AZN | 25 (iyirmi beş) faiz |
| Qısametrajlı animasiya filmləri üzrə | 13000 (on üç min) AZN | 15 (on beş) faiz |

- Qeyd olunan cədvələ uyğun olaraq, Agentlik tərəfindən ayrılan dəstək məbləği filmin post-prodakşn mərhələsini tam əhatə edib etməməsindən asılı olmayaraq, İştirakçı tərəfindən əlavə vəsaitin cəlb olunması heç bir halda Agentliyin gəlirlərdən payına münasibətdə

dəyişiklik edilməsinə səbəb ola bilməz.

- Beynəlxalq layihələr üzrə Agentlik tərəfindən göstərilən maksimal dəstək məbləğləri 50 faizə qədər artırıla bilər. Bu halda Agentliyin gəlirlərdəki (mənfəət) payı qeyd olunan tələblərə uyğun olaraq müəyyən edilir və dəyişilməz olaraq qalır. Müsabiqə zamanı öncədən razılaşdırılmaqla paydan əlavə şərtlər (festivalda iştirakla bağlı xərcləri və s.) müəyyən edilə bilər.
- Maliyyə dəstəyinin maksimal həddinin bu reqlamentlə müəyyən edilməmiş formada artırılması Bədii Şuranın bu barədə rəyləri əsas götürülməklə yalnız Nazirliyin razılığı ilə mümkündür. Nazirlik müvafiq razılığın verilməsi üçün əlavə sənədlər tələb edə və şərtlər müəyyən edə bilər. Bu zaman ayrılacaq dəstək məbləğinə uyğun olaraq qarşılıqlı razılıq ilə Agentliyin gəlirlərdəki payı öncədən razılaşdırılır.
- Maliyyələşmə post-prodakşn işlərinə tələb olunan təxmini büdcə və həmin dövrün iş planına uyğun olaraq Agentlik tərəfindən aşağıda göstərilən qaydada həyata keçirilir:
  - “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq, Agentlik ilə İştirakçı arasında müqavilə bağlandıqdan sonra müqavilə məbləğinin 30 (otuz) faizi avans olaraq avans təminatı əsasında ödənilə bilər;
  - Məbləğin qalan hissəsi və ya bütöv halda (avans təminatı olmazsa) filmin iş planına (icra qrafiki) uyğun olaraq görülmüş işlərin (xidmət) aktlaşdırılması əsasında ödənilir. İştirakçı görülmüş işlər (xidmət) barədə bədii və maliyyə hesabatını hazırlayaraq Agentliyə təqdim edir. Müvafiq işlər üzrə təqdim edilmiş bədii hesabatlar Bədii Şura tərəfindən qəbul edildikdən sonra təqdim edilmiş maliyyə hesabatları Agentlik tərəfindən yoxlanılır. Hər hansı konkret işdə (montaj, səs, rəng və s.) uyğunsuzluq və ya digər qüsurlar aşkarlandığı halda aşkar olunan qüsurlar aradan qaldırılmayana qədər hesabat təhvil verilməmiş hesab olunur. Post-prodakşn zamanı işlərin görülməsi tərəflər arasında imzalanan akt ilə rəsmiləşdirilir və akta uyğun olaraq ödəniş bank vasitəsi ilə həyata keçirilir.
  - İştirakçı, post-prodakşn mərhələsi üzrə işlərin görülməsinə Azərbaycan Respublikasının ərazisindən mütəxəssislərin cəlb olunmasına dəstək göstərməlidir. İştirakçı yalnız belə mütəxəssislərin olmadığı təqdirdə beynəlxalq mütəxəssislərə müraciət edə bilər. İştirakçının cəlb etdiyi mütəxəssislərin peşəkarlığına dair iştirakçı şəxsən məsuliyyət daşıyır. Beynəlxalq layihələr üzrə yerli mütəxəssislərin cəlb edilməsinə dəstək göstərilməsi tələbi yoxdur.

***QEYD:*** Layihə təklifləri 21 fevral 2025-ci il tarixində yerli vaxtla saat 18:00-dan gec olmayaraq **https://arka.culture.az** internet səhifəsindən keçid etməklə göndərilməlidir. Gecikmiş layihə təklifləri etibarsız hesab olunacaq. İştirakçılar müraciətlərinin vaxtında çatmasına görə öhdəlik daşıyırlar.
***Bu Elan ilə bağlı bütün suallarınızı*** arka@culture.gov.az ***elektron poçt ünvanı vasitəsilə göndərə bilərsiniz. 21 fevral 2025-ci il tarixinədək göndərilən suallar cavablandırılacaq.***